6

# Dördüncü İmamımız
# Hz. İmam Zeynəlabidin (ə)



Şəhidlər sərvəri imam Hüseynin oğlu imam Səccad (ə) dördüncü imamıdır. Adı Əli, anası Şəhrəbanu, ən məşhur ləqəbi Zeynəlabidin və Səccaddır. O həzrət 38-ci hicri-qəməri ilində dünyaya gəlmiş və uşaqlıq illərini Mədinə şəhərində keçirmişdir. Təxminən iki il babası imam Əlinin (ə), on il də əmisi imam Həsənin (ə) imamət dövrünü görmüşdür.

Hicrətin 61-ci ilinin Məhərrəm ayında atasının inqilab və şəhadəti zamanı Kərbəlada iştirak etmiş, lakin xəstə olduğu üçün döyüşməmişdir. Kərbəla faciəsindən sonra digər əhli-beyt əsirləri ilə birlikdə Kufəyə, sonra isə Şama əsir aparılmışdır. Bu səfərdə o həzrət müsibət və çətinliklər zamanı digər əsirlərin pənahı və himayədarı olmuşdur. O həzrət bu səfərdə öz mətin çıxışları ilə Yezidin hakimiyyətini rüsvay etmiş və Şamdan qayıtdıqdan sonra Mədinə şəhərində yaşamışdır. Nəhayət, hicrətin 94, ya da 95-ci ili Hişam ibn Əbdülməlik tərəfindən zəhərləndirilərək şəhadətə yetirilmiş və Bəqi qəbristanlığında əmisi imam Həsənin (ə) qəbrinin kənarında dəfn olunmuşdur.

## İMAMIN XƏSTƏLİYİ İLAHİ BİR MƏSLƏHƏT İDİ

Bir qrup müsəlman imam Səccadı (ə) həmişə xəstə kimi yad edir və bununla da, camaatın düşüncəsində o həzrət çox zəif, əldən düşmüş, saralıb-solmuş bir şəxs kimi canlanır. Halbuki, əslində, heç də belə olmamışdır. Çünki o həzrət yalnız Kərbəlada, özü də çox qısa müddətdə xəstə olmuşdur. Kərbəla hadisəsindən sonra isə sağalmış və təxminən, otuz beş il digər imamlar kimi sağlam bədənlə fəaliyyət göstərmişdir. Şübhəsiz, o həzrətin Kərbəla hadisəsindəki müvəqqəti xəstəliyi Allahın bir məsləhəti olmuşdur. Belə ki, imam Səccad (ə) bu vasitə ilə cihad vəzifəsindən azad olmuş, müqəddəs vücudu Yezidin muzdurlarının ölüm təhlükəsindən amanda qalaraq imamət xətti davam etmişdir. Əgər imam Səccad (ə) xəstələnməsəydi, cihadda mütləq iştirak etməliydi. Bu təqdirdə, atasının başqa oğul və dostları kimi şəhid olar və beləcə, imamət nuru birdəfəlik sönmüş olardı.



Sibt ibn Cuzi yazır: Əli ibn Hüseyn (imam Səccad) xəstə olduğu üçün öldürülmədi.

Məhəmməd ibn Səd yazır: Əli ibn Hüseynin (ə) Aşura günü atası ilə olan zaman iyirmi üç, yaxud iyirmi dörd yaşı var idi. O, həmin gün xəstə olduğundan döyüşdə iştirak edə bilməmişdir. Bəli, dördüncü imamın sağ qalmasına səbəb olan xəstəlik ilahi bir məsləhət idi.

## İMAM SƏCCAD (Ə) – KƏRBƏLA İNQİLABININ CARÇISI

İmam Səccad (ə) Aşura faciəsindən sonra Əhli-beyt əsirlərinin başında olmaqla Aşura inqilabının və imam Hüseynin (ə) şəhadətinin carçısı olmuş, öz söhbət və çıxışları ilə Əməvi hakimiyyətinin çirkin üzünü tanıtdırmaq və camaatın düşüncəsini oyatmaqla məşğul olmuşdur.

Müaviyənin dövründən etibarən Əməvilər sülaləsinin Peyğəmbər (s) ailəsinin əleyhinə uzun-uzadı təbliğatlarını nəzərə almaqla, şübhəsiz, əgər Əhli-beyt əsirləri Əməvilər hakimiyyətinin iç üzünü açaraq camaatın düşüncəsini oyatmasaydılar, İslam düşmənləri və hakim dairələr imam Hüseynin (ə) böyük və həmişəyaşar inqilabını tarix səhifəsindən pozar, onun simasını dəyişdirərdilər. Ancaq imam Səccadın (ə), eləcə də, digər əsirlərin əsir olduqları müddətdə apardıqları təbliğat imam Hüseynin (ə) düşmənlərinə bu fürsəti vermədi və Yezidi hər yerdə rüsvay etdi.

## İMAM SƏCCADIN (Ə) MÜBARİZƏ ÜSULLARI

İmam Səccadın (ə) fəaliyyətlərinin ən mühüm hissəsini aşağıdakı bölmələrdə xülasə etmək olar:

### 1. Aşura xatirəsini əbədi yaşatmaq:

İmam Hüseyn (ə) və onun sadiq dostlarının şəhadətini əbədi yaşatmaq üçün imam Səccad (ə) öz mənfi mübarizəsini şəhidlərə ağlamaqla davam etdirirdi. Şübhə yoxdur ki, bu yandırıcı göz yaşlarının bir məhəbbət kökü vardır. Çünki Kərbəla faciəsinin müsibəti o



qədər böyük idi ki, o faciəni öz gözləri ilə görən şəxslər nə qədər ki, sağ idilər, onu yaddan çıxarmazdılar. Ancaq şübhəsiz ki, imam Səccadın (ə) bu hadisəyə münasibətinin bir siyasi təsir və nəticəsi var idi. Aşura hadisəsinin tez-tez təkrarlanması Əməvi hakimiyyətinin zülmlərini yaddan çıxmağa qoymurdu. İmam Səccad (ə) su içərkən gözü suya sataşdıqda, gözlərindən yaş süzülməyə başlayırdı. Bunun səbəbini soruşanda buyurardı: Yezidin adamları suyu atamın üzünə bağladıqları (və onu susuz qoyduqları) bir halda, mən necə ağlamayım?

### 2. Ümmətə nəsihət:

O həzrət camaatı moizə ilə düzgün ilahi fikirlərlə tanış edir, keçmiş zalım hakimlərin təbliğləri nəticəsində unudulmuş, yaxud təhrif edilmiş islami fikirləri əvvəlki və əsl halına qaytarır və camaata bacardığı qədər İslam təlimlərini çatdırırdı.

### 3. Dua qalibində İslam maarifinin bəyanı:

İmam Səccadın (ə) təbliğ və mübarizə metodlarından biri də İslam maarifini dua şəklində bəyan etmək idi. Dua insanla Allah arasında çox mühüm və tərbiyəvi təsir bağışlayan bir vasitədir. İslam cəmiyyəti azğınlığa düçar olaraq dünyapərəstliyə qapıldıqda, siyasi, əxlaqi və ictimai fəsada büründükdə, siyasi təzyiq və işgəncələr xərçəng xəstəliyi kimi cəmiyyətə hakim kəsilir və insanlara nəfəs almaq üçün azacıq belə fürsət vermirdi. Belə bir şəraitdə, imam Səccad (ə) İslam əqidələri və mədəniyyətinin bir qismini camaatın nəzərinə çatdırmaq üçün duadan faydalanaraq xalqın yenidən ibadət və bəndəçiliyə yönəlməsini təmin edir və onları hərəkətə gətirirdi. İmamın dualarda əsl məqsədi ibadət və Allahla rabitəsinin möhkəmlənməsi olsa da, onun mətninə nəzər saldıqda, o həzrətin siyasi düşüncələri ilə də tanış ola bilərik. O həzrətin dualar toplusu Səhifeyi-Səccadiyyə adlanır. Bu kitab Quran



Bəqi Qəbristanlığı

və Nəhcül-bəlağə dən sonra ən böyük və ən mühüm ilahi maarif xəzinəsi sayılır.

### 4. Əhkam, əxlaqi və tərbiyəvi əsərlərin nəşri:

İmam Səccaddan (ə) yadigar qalmış əxlaqi-tərbiyəvi təlimlərdən bir nümunəsi Risalətül-hüquq adlı bir məcmuədir. İmam (ə) burada insanın müxtəlif istər Allah, istərsə də başqaları qarşısındakı vəzifələrini bəyan etmişdir. Əlliyə qədər olan bu vəzifə və hüquqları İmam (ə) əvvəl qısa şəkildə, sonra isə ətraflı izah etmişdir.

### 5. Kimsəsizlərə yardım:

İmam Səccadın (ə) həyatının parlaq cəhətlərindən biri də, o həzrətin zülmlə dolu mühitdə ictimai xidmətləridir. Nəql edirlər ki, imam Səccad (ə) Mədinənin yüz yoxsul ailəsini dolandırırdı. Mədinə əhalisinin bir dəstəsi güzəranlarını gecə vaxtı onlara gətirilən yeməklə keçirirdilər. Ancaq yemək gətirənin kim olduğunu bilmirdilər. İmam Səccad (ə) vəfat etdikdən sonra başa düşmüşdülər ki, gecə vaxtı onlar üçün yemək-içmək gətirən şəxs imam Səccad (ə) imiş.

### 6. Tərbiyə ocağı:

İslam dininin zühur etdiyi bir vaxtda dünyanın hər tərəfində, hətta o dövrün əsas mədəniyyət mərkəzləri olan Yunanıstan və Romada quldarlıq hökm sürürdü. Belə bir quruluşu bir dəfəyə aradan qaldırmaq mümkün olmadığı üçün İslam dini tədricən onu aradan qaldırmağa zəmin yaratdı. Bir tərəfdən quldarlıq dairəsini məhdudlaşdırdı, digər tərəfdən qul azad etməyi bir çox günahların kəffarəsi təyin etməklə qulların azadlığı üçün şərait yaratdı, üçüncü tərəfdən də, Peyğəmbər (s) müsəlmanlara qullarla (bir ailə üzvü kimi) insancasına rəftar etməyi tövsiyə etdi.

İmam Səccadın (ə) həyatında da qul azad etmək məsələsi gözə dəyir. Ancaq imam Səccadın (ə) bu işdə tərbiyəvi-insani məqsədlər güdürdü. Yəni qulları alaraq onları bir müddət təlim-tərbiyə etdikdən sonra azad edirdi. Onlar da cəmiyyət arasında nümunə olaraq mədəni və tərbiyəvi fəaliyyətlər göstərir və azad olduqdan sonra da, İmamla (ə) əlaqələrini kəsmirdilər. Nəql olunur ki, imam Səccad (ə) Ramazan ayının son gecəsi iyirmi qul azad edib buyurardı: Mən istəyirəm Allah görsün ki, mən dünyada öz qullarımı azad etdim, bəlkə qiyamət günü O da məni cəhənnəm odundan azad etsin. İmam Səccad (ə) heç bir xadimi bir ildən artıq saxlamazdı. İlin əvvəli, ya ortasında evə gətirdiyi xadimi Fitr bayramı




gecəsi azad edər, sonrakı il onun yerinə bir başqasını gətirib, onu da növbəti Ramazan ayında azad edərdi. Bu iş o həzrətin ömrünün axırınadək davam etdi.

Belə qənaətə gəlmək olar ki, imam Səccad (ə) bu proqramla əslində bir tərbiyə ocağı yaratmışdı. Qulları alıb onlara təlim-tərbiyə verir, onları azad etdikdən sonra hər biri başqalarının örnəyinə çevrilirdi. Onlar azad olduqdan sonra İmamla (ə) mənəvi əlaqəni kəsmir, hər biri öz növbəsində başqalarına təlim-tərbiyə verirdi.

*Gürcüstan Müsəlmanları İdarəsi*

# İMAM SƏCCADDAN (Ə) HƏDİSLƏR

* *"Dörd əməli yerinə yetirənə Allah cənnətdə bir ev tikər: 1. yetimə sığınacaq verənə; 2. zəiflərə məhəbbət göstərənə; 3. valideyninə ürək yandırana; 4. köləsi (tabeçiliyində olan) ilə xoş rəftar edənə."*

* *"Dörd xüsusiyyətə sahib olan şəxsin imanı kamil olar, günahları bağışlanar və Allah-Taalanın razılığını qazandığı halda Onun hüzuruna gedər (dünyadan köçər); 1. ilahi qorxu, belə ki, heç bir təvəqqesi olmadan xalqa xidmət etmək; 2. insanlarla doğru danışmaq; 3. Allah-Taalanın və insanların nəzərində (şəri və ürfi baxımdan) çirkin sayılan işlərdən uzaq olmaq; 4. əhli-əyalı ilə xoş rəftar etmək."*

* *"Üç əməl möminin nicatına səbəb olar: 1. dilini pis sözlərdən və insanların qeybətindən qorumaq; 2. dünyası və axirətinə faydası olan işlərlə məşğul olmaq; 3. öz xətalarına görə çox ağlamaq."*

* *"İnsanların ən zəngini Allahın verdiyi nemətlərə qane olan kəsdir."*

* *"İnsan heç bir işdə insanlara ümid bəsləməsə və bütün işlərini yalnız Allah taalaya həvalə edərsə, Allah da hər bir işdə onun duasını qəbul edər."*

* *"Səhabələrdən biri Əli ibn Hüseyn(ə)-a ərz etdi: -Məni dinin bütün qanunlarından agah edin! Buyurdu: -Haqq söz, ədalətlə hökm və əhdə vəfa etmə."*